

*Ələsgər Talıboğlu, şair-publisist, "Məmməd Araz" mükafatı laureatı.*

# Sevdalar selinə bələnən könül

### *Dilimin ucunda cilvəli sözlər*

Üfüqdən bir nazlı sənəm boylanır,
Can verir dünyaya xoş gəlişiylə.
Hər qəlbdə bir sevda,istək oyadır.
Nazəndə işvəsi, şux gəlişiylə.

Bu yaz sabahının gerçək çağında
Qızıl gül şaxında neçə şam yanır.
Hər koldan boy verir titrəyən qönçə,
Qırmızı, narıncı bir ağ şam yanır.

Günəşin bal daman şəfəqlərindən
Allanıb yanağı tər çiçəyin də.
Zərrin naxış salan şeh damlaları
Qonub dodağına hər ləçəyin də.

Dilimin ucunda cilvəli sözlər,
Az qalır ürəyim çıxsın yerindən.
Şeirə susamış şair könlüm də
Heç doymaq bilməyir çiçək sehrindən.

### *O yurd mənim yurdum idi*

Bu diyarda yurd varıydı,
Deyin, hara köçdü belə.
Bəlkə elə qanadlanıb
Bir quş olub uçdu belə.
Yoxdu artıq... yoxdu artıq...
Könül dünyam yırtıq-yırtıq.
Odur ki, boş qalıb içim...

Allı-güllü Dərələzim,
Vardı, daha yoxdu indi.
O yerləri düşündükcə
Vüsal eşqi qəlbdə dindi.
Yoxdu artıq... yoxdu artıq...
Könül dünyam yırtıq-yırtıq
Odur ki, boş qalıb içim...

Ələsgərin uyuduğu
Göyçə adlı elim vardı.
İndi adı Sevan olan
Zümrüd gözlü gölüm vardı.
Yoxdu artıq... yoxdu artıq...
Könül dünyam yırtıq-yırtıq.
Odur ki, boş qalıb içim...

Hanı axı Vedibasar,
De, harada Zəngibasar.
Ürəyimi Zəngəzurtək
Bir həsrət, göynərti qarsar.
Yoxdu artıq... yoxdu artıq...
Könül dünyam yırtıq-yırtıq
Odur ki, boş qalıb içim...

Adlarını yanğı ilə
Birər-birər sanadığım,
Həm özümü, qardaşımı,
Yüz minlərlə yurddaşımı
Töhmətləyib,qınadığım.

O yurd mənim yurdum idi
Yoxdu artıq... yoxdu artıq...
Könül dünyam yırtıq-yırtıq.
Odur ki, boş qalıb içim...

### *Yol gedirəm hələ ki*

Ürəyimdə bir sevda
Gözlərimdə bir umud.
Başım üstdən asılan
Yerə təşnə nəm bulud.
Yol gedirəm hələ ki...

Saçlarımda ağ naxış,
Yollarımda sis, duman.
Arxamda acı həyat
Önümdə yetməz güman.
Yol gedirəm hələ ki...

Öləsiyən sevdamın
Dodağımda qübarı.
Yurd ağrılı həsrətin
Köksüm üstə qabarı.
Yol gedirəm hələ ki...

Qarşıda aşılası
Dolanbaclı bir gədik.
Vaxt çatanda hər kəsə
Əlvidamı söylərik.
Yol gedirəm hələ ki...

### *Qorxum yoxdu səndən ölüm*

Su da keçmir artıq daha
ölüm ilə aramızdan.
Azalır dostların sayı
Yavaş-yavaş sıramızdan.

Hər gələn qəfil xəbərdən
duymaqdayam qoxusunu.
Hər gecə görürəm vahim
bu ölümün yuxusunu.
Yana-yana yox oluram,
tökülür yollara külüm.
Ürək isə öz işində,
qorxum yoxdu səndən ölüm.

### *Fəda etsin Xuda məni*

Mənim sevdam qara sevda,
Saldı oddan oda məni.
Qor daşıdım kipriyimdə
Aldı məndən o da məni.

Gah qəlbimi ovutdu o,
Gah könlümü yovutdu o.
Gah da ömrə şam tutdu o,
Kərəm sandı bu da məni.

Mənim sevdam yurd sevdası,
İçimdədi hər sədası.
Valeh edər xoş ədası,
İstər doğra, buda məni.

Talıboğlu, eşqin uca,
Bitməz sevdan, bitməz bunca.
Sev Vətəni, sev, doyunca,
Fəda etsin Xuda məni...

### *Hardasa bir agac kəsildi vaxtsız...*

Hardasa bir dodaq nəğməyə təşnə,
Sozalan şux gözlər yaşlı qalıbdı.
Sevdalar selinə bələnən könül
Həsrət girdabına artıq dalıbdı.

Hardasa bir qəlbə kəc sığal çəkdi,
Qəfil gəlişiylə hicranın əli.
Hardasa alınmaz uca qalanı
Viranə eylədi şeytan əməli.

Hardasa bir ağac kəsildi vaxtsız,
Sonuncu ümid də bitdi ürəkdə.
Əzildi hər dərdin ağırlığında
Köksümdə çırpınan məsum ürək də.

### *Bu gün də belə bir ömür yaşadım*

Öpdüm yaddaşımın şah budağından,
Arana daşıdım, dağa daşıdım.
Açdım xəyalımın ağ yelkənini
Bu gün də belə bir ömür yaşadım.
Mindim xəyalımın yüyrək atına.
Düşdüm olmuşların dərin qatına
Tanrımı çağırdım son imdadıma,
Bu gün də belə bir ömür yaşadım.

Endim dünənimə varaqbavaraq,
Ayları,illəri varaqlayaraq.
Ötən günlərimi soraqlayaraq,
Bu gün də belə bir ömür yaşadım.

Talıboğlu, haysız andım bir anlıq,
İtənin oduna yandım bir anlıq.
Özümü bir çağa sandım bir anlıq,
Bu gün də belə bir ömür yaşadım.

### *Ömür bitər, dərd bitməz*

Bu həyat başdan mənə
Elə zordan zor oldu.
Sıxdı məni bu yer, göy,
Qəfəsdən də dar oldu.

Hər getdiyim yolum da,
Hətta sağım, solum da.
Fərq etmədi halımda,
Qızmar ataş, qor oldu.

Talıboğlu, haqq itməz,
Dünya belə də getməz.
Ömür bitər, dərd bitməz,
Hər ötən gün kar oldu.

### *Vətənsiz olmadım*

Məni qorxutmadı
qərib duyğulara bələnə-bələnə
qərib sularda üzmək,
mavi dalğaların qoynunda,
xəyallarımın mürgülü oynunda
arına-arına süzmək,
Elə qərib limanlarda da
gecələmək yazıldı alnıma,
qərib limanlarda uyuyan
qərib gəmilər kimi.
Bu qərib ölkələrdə
ömrümdən itirdiyim
aylarım, illərim isə
xəzan vurmuş zəmilər kimi...
Bircə şeyə şükr etdim:
qürbətdə olsam da,
Vətənsiz olmadım,
ondan uzaq qalmadım.
Daima Vətən eşqilə
çırpındım, yandım...
hər ötən anımda belə,
özümü Vətəndə sandım.

### *Bu gecə görünmədi...*

Bu gecə görünmədi
göy üzünün
nə ayı, nə ulduzu.
Röyalarıma
qara-qara buludlardan
yağırdı qar qan qırmızı...
Yarı mürgülü, yarı oyaq,
dünyanı gördüm
qıldan asılmış halda, -
baş-ayaq...
Elə röyaların ağuşunda da
əritdim gecənin qaranlığını,
...gözümü açanda
gördüm danın alatoranlığını.
Anladım ki,bütün bunlar
sehirli bir röya imiş...
özüm də dərk etmədən
ruhumu gərmiş...

### *O yerlərin sevdasıyla...*

Necə də amansız,
sərt gəldi o payız...
Birdən-birə
İlk öncə quşlar çəkdi köçünü,
sonra qızılı yarpaqlar.
Nəğməsiz qaldı məsum dodaqlar...
O qarışıq dünyamızın
qarmaqarışıq günlərindən birində,
dərd üstünə
neçə-neçə dərd gəldi,
kəllə-çarxa vurdu dərdi-səri də...
Zor gücünə köç edəsi olduq,
nə var...nə dövlət...
təkcə başımızı
götürüb gedəsi olduq...
min-min illər
ata-babalarımızın yurd saldığı,
ömür sürdüyü yurd yerlərindən...
...Lələ köçdü,qaldı yurdu...
Neçə yüz illər bundan öncə
qucaq açdığımız,
sığınacaq verdiyimiz,
qapımızda
köpək yerinə saxladımız haylar
quduzlaşıb qudurdu,
başladılar bizimlə torpaq qovğası,
və sonunda
oldular torpağımızın ağası...
İndi zaman-zamandır
gözlərimiz yolda,
özümüzsə o yerlərin sevdasıyla
yaşayırıq pərişan halda...
açılmaq bilməyir
qəlbimizi çulğamış bulud,
bağrına isə basıb
öləziyən cəsədini umud...



2018.-S.7.